

# QAFQAZ İSLAM ORDUSU

# QAFQAZ
# İSLAM ORDUSU

## *Qonşuların xəyanəti*

Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra (1828-ci il) regionda Azərbaycan anlayışı ortadan qalxaraq Cənubi Qafqaz və ya Zaqafqaziya məfhumu meydana çıxdı. Azərbaycan xanlıqları 6 əyalətə (Bakı, Quba, Şəki, Şirvan, Qarabağ, Talış), 2 dairəyə (Yelizavetpol, Car-Balakən) və 2 distansiyaya (Qazax, Şəmşədin) bölündü. Ruslar üçün Azərbaycan yox, Zaqafqaziya vardı və Zaqafqaziyada xristian əhalinin sayının artırılması üçün böyük işlər görülürdü, o cümlədən müsəlman türklərin Cənubi Azərbaycana köçmələri üçün müxtəlif təzyiqlər göstərilirdi.

1917-ci ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti devrildi. Monarxiyanın süqutu nəhəng imperiyanın bütün milli bölgələrində istiqlal arzularını gündəmə gətirdi. Müvəqqəti hökumətin elan etdiyi Müəssislər Məclisində təmsilçilik bu istiqamətdə ilk mərhələ idi. 1917-ci ilin oktyabrındakı bolşevik çevrilişi nəticəsində Cənubi Qafqazdan Müəssislər Məclisinə seçilən

deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini (Zaqafqaziya Parlamentini) yaratdılar.

Məhz bu fraksiyanın təşəbbüsü ilə 1918-ci il aprelin 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Aprelin 28-də Zaqafqaziya Demokratik Federativ Respublikası Osmanlı dövləti tərəfindən tanındı.

Ancaq təəssüf ki, almanların, ingilislərin və rusların gözü neft yataqları ilə zəngin Bakıda, gürcü və ermənilərin gözü Azərbaycan torpaqlarında idi. Dolayısı ilə Azərbaycanı və Azərbaycan xalqını yox etmək planı gizli şəkildə qüvvədə idi. Belə ki, almanlar gürcüləri, ingilis və ruslar isə erməniləri dəstəkləyirdi.

Zaqafqaziya Demokratik Federativ Respublikasının elanından cəmi 16 gün sonra – may ayının 14-də Gürcü Milli Şurasının gizli iclası keçirildi və qərara alındı ki, general fon Lossov vasitəsilə Gürcüstana qəyyumluq göstərmək üçün Almaniya hökumətinə müraciət edilsin. General fon Lossov

bildirdi ki, əgər Gürcüstan Zaqafqaziya Federasiyasının tərkibindən çıxıb müstəqilliyini elan edərsə, Almaniya Gürcüstanın qəyyumluğunu üzərinə götürəcək.

Artıq mayın 22-də gürcü nümayəndəliyi müstəqillik elan etmək haqqında qəti qərara gəldi. Mayın 25-də Almaniya ilə Gürcüstan arasında gizli şəkildə müqavilə imzalandı. Beləliklə, Batum konfransında Almaniya nümayəndələri ilə separat danışıqların gedişində Zaqafqaziya Seyminin gürcü fraksiyası Gürcüstanın Zaqafqaziya Demokratik Federativ Respublikası tərkibindən çıxmasını və müstəqilliyini elan etməsini qərara aldı.

Azərbaycan tərəfinin bütün etirazlarına baxmayaraq, əvvəlcə Gürcüstan, ardından Ermənistan Zaqafqasiya Demokratik Federativ Respublikasından ayrılaraq, dövlətlərini qurmaq qərarı aldılar. Əslində, erməni və gürcülərin niyyəti başqa idi. Bakı və dolayısı ilə Azərbaycan 1917-ci ilin oktyabr ayından işğal altında idi. 1918-ci ilin martında Rusiya bolşeviklərinin rəhbəri Vladimir İliç Lenin erməni əsilli Stepan Şaumyanı Qafqaz fövqəladə komissarı təyin edərək Bakıya göndərmişdi. Bolşeviklər ermənilərin də yardımı

ilə Bakıda hakimiyyəti ələ keçirdilər, 18-31 mart 1918-ci il tarixləri arasında Bakıda Azərbaycan xalqı və müsəlmanlar bolşevik erməni və rusların kütləvi qırğınlarına məruz qaldılar.

## *Təhlükə ilə üzbəüz və təkbətək*

Tiflisdə elan edilən Azərbaycan hökuməti əslində gürcülərə, ermənilərə, almanlara, ingilislərə və ruslara sərf edirdi, çünki bu hökumətə təzyiq edərək Azərbaycandan qopardıqları mənfəətlərə (torpaq və s. ) hüquqi don geyindirməyi bacaracaqlarını düşünürdülər.

Onlara görə, Azərbaycan təklənmişdi, o, həqiqətən də tək qalmışdı. Bu təzyiqlərə davam gətirə bilməyib hər cür tələbin olduğu sənədə imza atmaq məcburiyyətində qalacaqdı.

Gürcü və ermənilər tez bir zamanda dövlətlərini qurmaq və işğal altındakı Azərbaycandan torpaq qoparmaq niyyətində idilər. 26 may 1918-ci ildə əvvəlcə gürcülər, daha sonra da ermənilər müstəqilliklərini elan etdilər. Ancaq onlar Ənvər Paşa haqqında məlumatsız idilər.

Azərbaycan tərəfi isə 28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının qurulduğunu elan etdi. Hökumət Tiflisdə fəaliyyət göstərirdi, çünki Azərbaycan işğal altında idi.

## *Qardaş diqqəti*

Azərbaycandakı bu hadisələri yaxından izləyən Osmanlı dövlətinin hərb naziri Ənvər Paşa Cənubi Qafqazdakı müsəlmanlara yardım məqsədi ilə Qafqaz İslam Ordusu üçün hazırlıqlara başladı.

Cənubi Qafqazla əlaqəli Osmanlı dövlətinin siyasəti dövlət siyasətindən daha çox Ənvər Paşanın şəxsi təşəbbüsü idi və çoxunun xəyalpərəst adlandırdığı bu insan sayəsində Azərbaycan Demokratik Respublikası 114 min kv.km ərazisi ilə tarixə düşdü.

Tiflisdə azərbaycanlı təmsilçilərə qarşı oyunları yaxından izləyən Ənvər Paşa Azərbaycan müstəqilliyini elan etdikdən dərhal sonra hökumət təmsilçiləri ilə əlaqə yaradaraq hansı yolu izləmələri ilə əlaqədar tövsiyə və təkliflər verdi. Osmanlı dövlətinin Azərbaycan Demokratik Respublikasına yardımı üçün hüquqi zəmin fəaliyyətinə başla-

nıldı. Osmanlı dövləti və Azərbaycanın Tiflisdəki hökuməti arasındakı bu münasibət düşmənlərin bütün planlarını alt-üst etdi.

1918-ci il iyunun 4-də Batumda istiqlaliyyətini yenicə elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti ilə Osmanlı hökuməti arasında bağlanmış müqavilənin IV maddəsində deyilirdi ki, "ehtiyac olduğu təqdirdə Osmanlı hökuməti qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək məqsədi ilə Azərbaycan Cümhuriyyətinə silahlı qüvvələrlə yardım etməyi" öhdəsinə götürür.

Hələ bu hadisələrdən əvvəl Osmanlı hərb naziri Ənvər Paşa ögey qardaşı Nuru Paşanı rəhbərliyindəki bir heyətlə Gəncəyə göndərmişdi.

Qafqazdakı siyasi vəziyyəti nəzərə alan Osmanlı dövləti Bakıda hakimiyyətin ermənilərin əlinə keçməsindən sonra bəzi tədbirlər almağı qərarlaşdırdı.

Erməni və rusların Bakını işğalından sonra 22 mart 1918-ci ildə Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın imzaladığı bir qərarla Qafqaz Ordusunun qurulması üçün lazımi fəaliyyətlər başlandı.

## *Qafqaz İslam Ordusu – Azərbaycanın xilası*

Qafqaz Ordusu (sonradan Qafqaz İslam Ordusu) Osmanlı dövləti hərb naziri (həmçinin Ali baş komandan vəzifəsinin müvəqqəti icraçısı) Ənvər Paşanın şəxsi təşəbbüsü ilə quruldu. Təbrizdən Dağıstana, Tehrandan Türküstana qədər olan əraziləri nəzarət altına alaraq bu əraziləri xarici işğalçılardan qorumaq və bu bölgələrdə türk dövlətlərinin qurulması üçün müvafiq şəraiti yaratmaq arzusunda olan Ənvər Paşa Qafqaz Ordusunun əsgərlərini sözügedən bölgələrin müsəlman sakinlərindən təşkil olunmuş könüllülərdən toplamağı planlaşdırmışdı. Bolşevik inqilabından sonra Qafqaz regionu ilə əlaqədar fəaliyyətini artıran Ənvər Paşa Azərbaycan və Dağıstan bölgəsinə bir hərbi hərəkat planı hazırladı.

1889-cu ildə İstanbulda doğulmuş Nuru Paşa Ənvər Paşanın ana bir, atadan ayrı olan ögey qardaşıdır. 1909-cu ildə Hərbi Məktəbdən, 1911-ci ildə Hərbi Akademiyadan məzun Nuru Paşa müxtəlif birliklərdə xidmət etmiş, Ənvər Paşanın xəyalındakı planı həyata keçirmək məqsədi ilə 1918-ci ildə rütbəsi iki dəfə artırılaraq general-mayor olmuşdu.

Nuru Paşa I Dünya müharibəsində Şimali Afrika cəbhəsində xidmət etmiş və çox sayda müvəffəqiyyət qazanmışdı. Gənc yaşına baxmayaraq, qazandığı bu müvəffəqiyyətlər Ənvər Paşa tərəfindən Qafqaz Ordusu komandanı vəzifəsinə seçilməsində böyük rol oynadı. Təşkil ediləcək ordu komandanı vəzifəsinə əvvəlcə şahzadə Fərruxun, daha sonra Kazım Qarabəkir Paşanın adı keçsə də Nuru Paşa general-mayor rütbəsinə yüksəldilərək, Qafqaz Ordusu komandanı vəzifəsinə təyin edilir. Bu rütbə də belə bir yüksək vəzifə üçün az olduğundan son çarə olaraq bir fərmanla padşah yavəri elan edilərək Qafqazda Osmanlı padşahının siyasətini təmsil etmə haqqı qazandırılır.

## *“Göydən enmiş xilaskar”*

Nuru Paşanın komandanlığındakı heyət 1918-ci ilin aprel və may aylarında Mosuldan çıxaraq Ravanduz, Savcabulak, Təbriz yolu ilə Azərbaycanın Zəngəzur bölgəsinə çatdı. Nuru Paşa 25 may tarixində Gəncə şəhərində qərargahını qurdu. M.Ə.Rəsulzadə yazırdı: “O zaman müdhiş bir anar-

xiyaya məruz, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qarşıladı".

Türklərin Gəncəyə gəlişi gənc Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə köçməsi üçün də uyğun şərait yaratdı.

Nuru Paşa Gəncəyə gələn kimi Qafqaz Ordusunun qurulması çalışmalarına başladı. Təşkilatın mərkəzini və qərargahını yaratmaq üçün Osmanlı ordusundan seçilmiş 149 zabit, 488 baş əsgər və əsgər 1918-ci ilin may-iyun aylarında Gəncəyə göndərildi. Nuru Paşa Azərbaycana gələndə əsas hədəfləri 30 minə qədər könülü toplamaq idi. Amma çar hökuməti Azərbaycan xalqını 90 illik işğalı müddətində hərbi sahədən kənarda tutduğundan Nuru Paşa bu şəkildə Azərbaycanın işğaldan azad edilməyəcəyini bildirərək, Qafqaz İslam Ordusunun təməli üçün qüvvənin Osmanlı ordusundan təmin edilməsini Ənvər Paşaya raport etdi.

Çar Rusiyasının hərbi siyasətində bir çox xalqlarla bərabər azərbaycanlılara da qarşı qərəzli münasibət mövcud olub. Azərbaycanlılar, bəzi istisnalar nəzərə alınmasa, əsasən hərbi məktəblərə

qəbul edilmir, ordu sıralarına çağırılmır, yalnız hərbi vergi ödəyirdilər. Elə bu səbəbdən Azərbaycanda böyük hərbi hissələr və kifayət qədər hərbi silah yox idi. O vaxt yalnız Qafqaz atlı diviziyasının tərkibinə daxil olan azərbaycanlı atlı polku var idi.

Nuru Paşanın qüvvə tələbi ilə 14 iyun tarixində Gəncəyə gətirilən V Qafqaz diviziyası ilk zamanlarda nizamsız Qafqaz Ordusu üçün ilk nizami birliklər oldu. V Qafqaz diviziyasının Gürcüstandan Gəncəyə gəlməsinə imkan verilməmiş və diviziya Cənubi Azərbaycan üzərindən Gəncəyə gələ bilmişdi.

## *Bir az geciksəydilər...*

Bu elə bir zaman idi ki, Gəncəni həm Bakıdan hərəkət edən Q.Korqanovun başçılıq etdiyi və əksəriyyəti erməni daşnaklarından ibarət sovet ordusu, həm də Zəngəzur və Qarabağ istiqamətində hərəkət edən Andranikin nizami quldur dəstələri təhlükə altına almışdılar. Faktiki olaraq Azərbaycan Cümhuriyyətinin və Azərbaycan xalqının ölüm-dirim məsələsi həll olunurdu. Nuru

Paşanın özünün də qeyd etdiyi kimi: “Bir az da geçiksəydik, Azərbaycanda “Allahu Əkbər” deyən bir nəfər də müsəlman-türk qardaşımız qalmayacaqdı”. Belə bir vaxtda Azərbaycan hökumətinin Baş naziri Fətəli xan Xoyski Cümhuriyyət hökuməti adından Osmanlı dövlətinə müraciət edərək real hərbi kömək göstərməyi xahiş edir. Sonradan, Azərbaycan parlamentinin ilk iclasında Fətəli xan bu haqda demişdi: “May ayının 28-də Azərbaycan İstiqlaliyyətini elan edərək öz hökumətini yaratdısa da, bu hökumət qanun və qayda yaratmaq, ölkənin müdafiəsi işində aciz idi. Çünki heç bir hərbi qüvvəmiz və silahımız yox idi. Türkiyə ilə bağladığımız müqaviləyə əsasən, Azərbaycan Türkiyədən bir qədər əsgəri yardım ala bilərdi. Hökumət bu haqda Türkiyə hökumətinə müraciət etdi... Özünüz bilirsiniz ki, Türkiyə öz borcunu yerinə yetirdi”.

Kütləvi informasiya vasitələrində və bir çox mənbələrdə Qafqaz İslam Ordusu tərəfindən, adətən, Bakının işğaldan azad edilməsi vurğulanır. Əslində isə həmin vaxtlar, yuxarıda da qeyd edildiyi kimi, Azərbaycan tamamilə işğal altında idi. Yəni Qafqaz İslam Ordusu tək Bakını deyil, Azərbaycanı işğaldan azad edib. Belə ki, Nuru Paşa döyüşləri

Gəncədən başlayaraq Göyçay, Ucar, Qaraməryəm, Şamaxı, Şəki, Quba, Salyan, Neftçala, Bakı Qarabağ və son olaraq Dərbəndi düşməndən təmizləyib.

3 iyun 1918-ci ildən başlayaraq erməni-rus birləşmələri Bakıdan Gəncə istiqamətinə iki qoldan irəliləməyə başladılar və qarşılarında heç bir güc olmadığı üçün 17 iyun 1918-ci ildə cənub qolu Müsüslü stansiyasına (Ucar rayonu), şimal qolu isə Göyçay rayonuna çatdı. Bakıdan Göyçaya gələnə qədər ermənilər 50 kəndi yandırmış və qaça bilməyənləri öldürmüşdülər.

17 iyun 1918-ci ildə Göyçay istiqamətində irəliləyən rus-erməni birləşmələrinin qarşısını kəsmək üçün göndərilən Qafqaz İslam Ordusunun X alayının bir taboru pusquya düşüb 200 nəfərlik itki verdi və geri çəkilmək məcburiyyətində qaldı. Ordudan əsir düşənlərin hamısı vəhşicəsinə qətlə yetirildi.

Qafqaz Ordusu Komandanlığı, erməni-rus birləşmələrinə qarşı 29 iyunda əks hücuma-keçdi. Uğurlu bir planla cəbhədə üstünlük türk ordusunun əlinə keçdi. Qafqaz Ordusunun hücumu qarşısında dayana bilməyən erməni-rus birləşmələri Ağsu rayonunun qərbinə çəkildi və Göyçay tamamilə düşmənin işğalından təmizləndi.

Göyçay müharibələrində məğlubiyyətə uğrayan erməni və ruslar türk ordusu qarşısında geri çəkilərək Kürdəmir–Ağsu xətti boyunca yenidən müdafiə mövqeyi almağa çalışmış, ancaq 5 iyul 1918-ci ildə türk ordusunun güclü hücumu qarşısında 6 iyulda Ağsu, 13 iyulda Kürdəmir ermənilərdən təmizlənmiş və işğaldan qurtulmuşdu.

Kürdəmirin düşmən işğalından qurtarılmasından sonra almanlar Osmanlı dövlətinə müharibənin dayandırılması üçün təzyiqlərini artırmağa başladılar. Bundan sonra Qafqaz İslam Ordusunun Osmanlı dövləti ilə heç bir əlaqəsi olmadığını göstərmək məqsədi ilə ordu şimal və cənub qruplarına bölündü. Qafqaz İslam Ordusunun adı Şərq Cəbhəsi Komandanlığı olaraq dəyişdirildi.

19 iyul tarixində Şamaxının düşmən işğalından qurtarılması məqsədi ilə türk ordusunun şimal qrupu Şamaxı istiqamətində hücuma keçdi. 20 iyulda Şamaxını da azad edən türk ordusu Bakı istiqamətində düşməni geri çəkilməyə məcbur etdi.

Almanlar Osmanlı dövlətinə qarşı təzyiqlərinin bir nəticə vermədiyini görüb, Rusiya ilə Osmanlı əleyhinə bir müqavilə imzaladılar. Anlaşmaya görə,

Bakı–Tiflis dəmir yolu Osmanlı ordusu üçün bağlandı və ermənilərə də bir hərbi təyyarə verildi.

Dəmir yolunun bağlanması, cəbbəxana və digər ehtiyacların təmin edilməsinin mümkün olmaması türk əsgərinin qəhrəmanlığı və fədakarlığı sayəsində ortadan qaldırıldı.

Ermənilər İranda yerləşən ingilis qüvvələrindən Bakının müdafiəsi üçün yardım istədilər və onların bu təklifləri Bakı neftindən pay almaq istəyən ingilislər tərəfindən qəbul edildi.

30 iyul 1918-ci il tarixində səhər saatlarında yenidən hücuma başlayan türk ordusu qarşısında dayana bilməyən erməni və rus birləşmələri 31 iyulda Qurd Qapısı dağının yamaclarında müdafiə mövqelərini gücləndirməyə başladılar. 1 avqust tarixində də hücumlarını davam etdirən türk ordusu Bakının 2 kilometrlik məsafəsində idi. Bakı yaxınlığındakı bu çətin müharibələrdə düşmənin hava və dəniz qüvvələri də iştirak edirdi, ancaq türk qoşunlarının hücumu cəbbəxana və əlavə qüvvənin əskikliyindən yavaşladı, Bakı tam olaraq işğaldan qurtulmaq vəziyyətində ikən 4 avqust 1918-ci il tarixdə hücum dayandırıldı.

5 avqust 1918-ci il tarixdə yenidən başlayan türk hücumu qarşısında dayana bilməyən ermənilər qorxu içərisində geri çəkilməyə başladı.

Qafqaz Ordusu bütün gücü ilə müharibəyə girişdi, ancaq cəbbəxana azlığı əsas problem olaraq qalırdı və buna görə bir müddətdən sonra düşmənin hava və top atışları qarşısında itki verərək hücumu dayandırmaq məcburiyyətində qaldı. Ordu artıq müdafiə mövqeyinə keçdi və ermənilərin əks hücumu qarşısında əvvəlki mövqelərinə geri çəkildi.

Avqust ayının əvvəlində olan birinci hücumundan sonra ermənilərin tələbi ilə Bakı neftini ələ keçirmək istəyən ingilislər 1500 nəfərlik 39-cu ingilis briqadasını İrandan Bakıya göndərdilər. Onlar ermənilərə silah, cəbbəxana və döyüş maşını dəstəyindən başqa təşkilatlanma sahəsində də köməklik göstərdilər.

## *Bakının fəthi*

Əlavə qüvvə və cəbbəxana lazım idi, əks halda itkilər böyük olacaqdı. 6 avqust-14 sentyabr tarixləri arasındakı müddət toplama və hücum hazırlıqları

planlarının hazırlanması ilə keçdi. 9 sen-tyabr 1918-ci il tarixində isə Qaliçya cəbhəsindən gətirilən XV motoatıcı diviziya ilə Qafqaz Ordusu gücləndirildi.

Yeri gəlmişkən, yeni Azərbaycan Milli Ordusunu təşkil etmək üçün Nuru Paşa tərəfindən 13 avqust 1918-ci il tarixində bir əmr hazırlanmışdı. Əmrdə aşağıdakı maddələrə yer verilib:

a. Azərbaycan Cümhuriyyətində Milli Ordu quruculuğu ilə əlaqəli fəaliyyətlər Qafqaz Ordusu tərəfindən tənzim və idarə ediləcəkdir.

b. Korpus zabitlərinin hamısı müsəlmanlardan təşkil ediləcəkdir.

c. Bütün zabitlər Osmanlı hərbi geyimində olacaqlar, süvarilər mərasimlərdə çərkəzi hərbi forma geyəcəklər.

d. Yeni qurulacaq hərbi birliklərdə danışıq və yazışma türk dilində olacaq.

e. Təşkil ediləcək tabor, alay və diviziya komandirləri Osmanlı zabitləri olacaq, milli kadrlar hazırlandıqdan, tam yetişdikdən sonra Osmanlı zabitlərini azərbaycanlı türk zabitləri əvəz edəcək.

14 sentyabrda, gecə saat 02:00-da əsas hücum V Qafqaz diviziyası istiqamətindən olmaqla hücum əmri verildi. Böyük manevr təcrübəsinə malik olan türk ordusunun aldatma xarakterli bu hücumu ilə düşmən aldadıldı və iki alayın başqa istiqamətdən gizli hücumu nəticəsində itki verilmədən düşmənin ön mövqeləri ələ keçirildi.

Qafqaz Ordusunun bütün gücü ilə sürətli hücumu qarşısında çaşbaş qalan düşmən Bakı istiqamətində geri çəkilməyə başladı. 15 sentyabr tarixində gündüz saatlarında da hücum davam etdirildi və saat 15.00-da Bakıda nəzarət tamamilə ələ keçirildi. Artıq 14-15 sentyabr tarixlərində içində erməni və rusların yüksək rütbəli şəxsləri və çox sayda əsgərləri olan gəmilər Bakını tərk etdi. Məğlubiyyəti qürurlarına sığışdırmayan düşmən neft quyularını yandırmışdı.

Şəhərdə nəzarət tam ələ keçdikdən sora 16 sentyabr 1918-ci il tarixində əvvəl Qafqaz Ordusunun qərargahı, daha sonra isə Azərbaycan Demokratik Respublikasının hökuməti müvəqqəti olaraq fəaliyyət göstərdiyi Gəncədən Bakıya köçdü.

Beləliklə, Qafqaz İslam Ordusu 1918-ci il sentyabr ayının 15-də Bakı şəhərini tutdu və Azərbaycan De-

mokratik Respublikası hökumətinin paytaxta köçməsi üçün şərait yaratdı. Qafqaz İslam Ordusu Bakını daşnaklardan, eserlərdən və ingilislərdən təmizlədi, şəhəri Azərbaycan Demokratik Respublikasının rəsmi paytaxtına çevirdi, Azərbaycanı təhlükədən xilas etdi, bütün ölkəyə nəzarəti hökumətin sərəncamına verdi.

Bakının azad edilməsi ilə əlaqədar olaraq Türkiyənin hərb naziri Ənvər Paşanın Xəlil Paşa və Nuru Paşaya göndərdiyi teleqramda deyilirdi: "Böyük Turan İmperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük bir sevinc və məmnunluqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edirəm".

Bakının azad edilməsi uğrunda müxtəlif düşmən qüvvələrin birləşmiş qoşun hissələri ilə vuruşlarda min nəfər türk əsgəri və zabiti, beş min yerli əhali həlak oldu.

## *Dərbəndin və Mahaçqalanın xilası, Azərbaycanın azad olunması*

Qafqaz Ordusunun Azərbaycan hərəkatında ermənilər tərəfdə döyüşən çar hökumətinin bir rus kazak alayının II Bakı hücumundan əvvəl Bakını tərk edərək Dağıstana yönəlməsi və Dağıstanın ən əhəmiyyətli şəhərləri olan Dərbənd və Mahaçqalanı işğal etməsi ilə yardım tələbinə əsasən Nuru Paşa 1 oktyabr 1918-ci ildə XV motoatıcı diviziyası ilə Dağıstan hərəkatını başlatdı. İcra edilən müvəffəqiyyətli bir hərəkatla 7 oktyabr 1918-ci ildə Dərbənd, 8 noyabrda Mahacqala qurtarılmış və Dağıstanda yaşayan türk və müsəlman xalqın da təhlükəsizliyi təmin edilmişdi.

Qafqaz Ordusu Bakı istiqamətində hərəkatına davam edərkən ermənilər də Qarabağ bölgəsində Şəbəkədəm, Əskəran, Şuşa və ətraflarında artan bir şəkildə qırğınlarını davam etdirirdilər.

Bakı hücumu sona çatdıqdan sonra Qarabağ türklərini erməni zülm və qırğınından qurtarmaq üçün 7 oktyabr 1918-ci də Nuru Paşa Qarabağ hərəkatını başlatdı və müvəffəqiyyətli bir hərəkatla

bu bölgədə yaşayan türklərin təhlükəsizliyi təmin edildi.

30 oktyabr 1918-ci də Mudros Sülh Sazişinin imzalanması ilə Osmanlı orduları bütün cəbhələrdə olduğu kimi, Qafqazdan da (17 noyabr 1918-ci il) çıxmaq məcburiyyətində qaldı. Onların tərk etdikləri yerlər sülh sazişinə əsasən I Dünya müharibəsinin qalib dövlətlərindən, ancaq Qafqazdakı hərəkatın məğlublarından olan ingilislərə təslim edildi.

## *Bir millət, iki dövlət*

Qədirbilən xalqımız Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi, böyük bir çətinliklə Qafqaz İslam Ordusunun qardaş köməkliyi ilə xilas etdikləri gözəl Bakımızın ən görkəmli yerlərindən birində, vaxtilə mənfur ermənilərin XX əsrin ilk dövrlərində qətlə yetirdikləri Azərbaycan xalqının mülki insanlarının dəfn edildiyi, daha sonra rusların assimilyasiya təbliğatı ilə bu məzarlığın S.M.Kirovun heykəlinin yerləşdiyi Dağüstü parka çevrildiyi, indi isə ölkəmizin işğaldan qurtulması üçün canlarını fəda edərək uyuduqları Şəhidlər xiyabanında Qafqaz

İslam Ordusunun vətənimiz üçün şəhid olan əsgər və zabitlərinin şərəfinə abidə ucaldılıb. Hər ilin 15 sentyabr tarixində burada Türkiyə Respublikasının Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə şəhidlər yada salınır, onların abidəsi önünə əklillər və gül-çiçək dəstələri qoyulur, xatirələri əbədiləşdirilir.

Bu hadisələr ayrı-ayrı dövlətlər olsa da, eyni tarixi köklərə sahib olan eyni milləti bir-birinə daha da yaxınlaşdırdı. Çətin vəziyyətə düşəndə ümummilli lider Heydər Əliyevin də bildirdiyi kimi, “iki dövlət, bir millət” olan Azərbaycan və Türkiyə bir-birinin sevincinə gülür, dərdinə şərik olur, mübarizəsini, siyasətini paralel şəkildə həyata keçirir. Ölkələrimizin müdrik siyasəti nəticəsində hər sahədə olduğu kimi, hərbi və iqtisadi sahələrdə də əlaqələr möhkəmlənir, uzaq yollar qısalır. İnanırıq ki, bu əlaqələr bundan sonra daha da inkişaf edəcək.



*Ənvər Paşa ilə Nuru Paşa ataları Əhməd bəy ilə*



*Qafqaz İslam Ordusunun əsgərləri*



QAFQAZ İSLAM ORDUSU



*Qafqaz İslam Ordusunun heyəti Gəncədə Səhiyyə Nazirliyinin əməkdaşları ilə, ortada Nuru Paşa və Mürsəl Paşa*

*Ənvər Paşa*

*Hazırlayan: Könül Muxtar*
*Redaktor: Rəşad Rəsullu*
*Korrektor: Kəmalə Cəfərova*

*Kitabça Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) layihəsi çərçivəsində hazırlanmış, Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) maliyyə dəstəyi ilə nəşr edilmişdir.*